

# 20 Yanvar tariximizin həm qanlı, həm də qəhrəmanlıq səhifəsidir

## 20 yanvar faciəsinə həsr olunmuş tədbir

*20 yanvar faciəsinin iyirmi yeddinci ildönümü ilə əlaqədar rayon mərkəzi xəstəxanasında tədbir keçirilmişdir.*

*Tədbir iştirakçıları əvvəlcə 20 yanvar faciəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.*



20 yanvar faciəsinin iyirmi yeddinci ildönümü ilə əlaqədar rayon mərkəzi xəstəxanasında tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə 20 Yanvar faciəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Tədbirdə çıxış edən mərkəzi xəstəxananın baş həkimi Sabir Bayramov iştirakçılara 20 yanvar faciəsinin səbəbləri haqqında ətraflı məlumat vermiş, bu faciəni doğuran o vaxtkı ictimai-siyasi hadisələrdən söz açmışdır. Qeyd olunmuşdur ki, həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan ümummilli lider Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək öz etirazını bildirmiş və faciəyə hüquqi-siyasi qiymət vermişdir.

Daha sonra tədbirdə çıxış edənlər 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet hərbçiləri tərəfindən törədilmiş qırğının dəhşətlərindən danışmış, qanlı hadisəni Azərbaycan xalqının azadlıq mübarizəsinin və qəhrəmanlıq salnaməsinin parlaq səhifəsi adlandırmışlar.

*"Qəbələ".*

## Qanlı 20 Yanvar

Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə bağlı tədbir keçirilib. "20 Yanvar—qanlı yanvar" mövzusunda keçirilən tədbiri giriş sözü ilə mərkəzin direktor əvəzi Kəmalə Qasımova açıb.

Əvvəlcə tədbir iştirakçıları tərəfindən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Kəmalə Qasımova daha sonra çıxışında qeyd edib ki, 20 Yanvar tariximizə faciəvi günlərdən biri kimi düşsə də, əslində bu gün xalqımızın qəhrəmanlıq tarixinin bir parçasıdır. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalqımız hər il yanvarın 20-də Şəhidlər xiyabanına üz tutur, azadlığımız uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir .

"20 Yanvar—Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi" mövzusunda çıxış edən mərkəzin əməkdaşı Mahirə Kərimova bildirib ki, 20 Yanvar və ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş xəyanətkar siyasətin növbəti təzahürü idi. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlığı uğrunda mübarizə əzmini qıra bilmədi.Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın azadlığı, müstəqilliyi üçün yol açdılar.

Mahirə Kərimova 20 Yanvar faciəsinə siyasi-huquqi qiymət verilməsi istiqamətində umummilli lider Heydər Əliyevin atdığı qətiyyətli addımlardan və faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülmüş işlərdən danışaraq bildirdi ki, 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi numayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etmiş, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bəyan etmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi inşa olunmuş və «20 Yanvar Şəhidi» fəxri adının təsis edilməsi haqqında» 31 mart 1998-ci il tarixdə Fərman imzalanmışdır. Fərmana əsasən 147 nəfərə "20 Yanvar şəhidi" adı verilmişdir. 20 yanvar şəhidlərinin xatirələrinin əbədləşdirilməsi və faciə qurbanlarının ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində işlər bu gün də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirin sonunda "Qanlı yanvar-qan yaddaşımız" mövzusunda təşkil olunmuş sərgiyə baxış keçirilib.

**Heydər Əliyev Mərkəzi.**

## 20 Yanvar faciəsinin ildönümü

*Qəbələ Telekommunikasiya Qovşağında 20 yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirib.*

*Toplantı iştirakçıları Azərbaycan xalqının milli müstəqilliyi uğrunda qurban getmiş şəhidlərin əziz xatirələrin bir dəqiqəlik sükutla yad ediblər.*

Daha sonra TKQ-nın rəisi Etibar İsayev çıxış edərək bildirib ki, Azərbaycan xalqı 1990-cı ilin qanlı yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. 20 Yanvar hadisələri xalqımızın 1988-ci ildə başlanan milli azadlıq hərəkatının zirvəsi idi. SSRİ-nin ali dövlət hakimiyyəti orqanları Azərbaycan xalqının suveren hüquqlarını qorumaq sahəsində konstitusiya öhdəliklərini yerinə yetirmədi. Bu da 1988-ci ildə respublikanın ərazi bütövlüyünün müdafiəsi uğrunda kütləvi xalq hərəkatının yaranmasına gətirib çıxardı. Digər tərəfdən Azərbaycanın o vaxtkı siyasi rəhbərliyinin tam çaşqınlığı, xalqla əlaqəsinin itməsi, müstəqilliyinin olmaması onun iflasını və hakimiyyətsizliyini labüd etmişdi. Beləliklə, yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın o vaxtki satqın rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin göstərişi ilə Bakıya ordu yeridilərək dinc əhaliyə qarşı amansız qətliam törədildi.



Toplantıda çıxış edənlər 20 Yanvar qırğınına Azərbaycan xalqının təkcə faciə günü yox, həm də tariximizin qanla yazılmış şərəfli səhifəsi olduğunu bildirdilər. Qeyd olundu ki, 20 Yanvar şəhidləri millətin qeyrət rəmzidir. Bu qeyrəti, vüqarı həmişə uca tutmaq hər birimizin müqəddəs borcudur.

*"Qəbələ".*

## 20 Yanvar qan yaddaşımızdır

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində "20 Yanvar qan yaddaşımız" mövzusunda "dəyirmi masa" təşkil olunmuşdur. Əvvəlcə tədbirə toplaşanlar tərəfindən həmin gecə sinəsini düşmən güləsinə sipər edən vətən övladlarının—şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir. 1990-ci il yanvarın 20-də əliyalın, dinc, haqqını tələb edən Azərbaycan xalqının sovet ordusu tərəfindən tanklar altında əzilməsi, evlərin, kücələrin bir sözlə hər tərəfin, hər bir kəsin güllə- baran edilməsi, Bakının düşmən tərəfindən qan gölunə çevrilməsi haqqında tədbirdə məlumat verilmişdir.

Sonda "dəyirmi masa" iştirakcıları "20 Yanvar Şəhidləri" daimi güşəsinə baxmışlar.

**✍ İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**

## 20 Yanvar faciəsi ilə əlaqədar anım günü keçirilib

*Qəbələ Poçt Filialında 20 Yanvar faciəsi ilə əlaqədar anım günü keçirilib.*

*Əvvəlcə toplantı iştirakçıları müstəqilliyimiz uğrunda canlarından keçən şəhidlərin əziz xatirələrin bir dəqiqəlik sükutla yad ediblər.*



Sonra poçt filialının rəisi Rauf Kərimov 1990-cı ilin qanlı yanvar hadisəsi haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. O, qeyd etmişdir ki, 20 Yanvar hadisəsi xalqımızın iradəsini qıra bilmədi. Əksinə, bu qanlı faciə xalqımızın müstəqil milli dövlət qurmaq arzusunu daha da gücləndirdi və bu müqəddəs yolda zəfərə doğru inamla addımladı. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini qıra bilmədi, milli azadlıq uğrunda mübarizə əzmini daha da gücləndirdi. Həmin müdhiş gecədə həlak olan vətən övladları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar. Xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Çıxış edənlər tərəfindən qeyd olunmuşdur ki, ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən 1990-cı ilin 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülür, şəhid ailələrinə dövlət qayğısı daim artırılır. Bildirilmişdir ki, Azərbaycan dövləti və xalqı 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutacaq, onların fədakarlıqları xalqımızın yaddaşından heç zaman silinməyəcəkdir.

*"Qəbələ".*

## Xalqın qəlbində yaşayanlar

*Azərbaycanımızın müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərimiz heç vaxt yaddan çıxmır, onlar əbədi olaraq xalqın qəlbində yaşayırlar. Yanvar ayının 19-da Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində keçirilən 20 Yanvar Hüzn Gününə həsr edilmiş tədbir olduqca yadddaqalandır.*

Tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

Direktor müavini Azadə Hacıyeva toplantını açıq elan etmiş, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılmışdır. Məktəbin bir qrup müəllim və şagirdi 2016-cı ilin aprel döyüşlərində şəhid olmuş Sahil Şirinovun məzarını ziyarət etmiş, üstünə qərənfillər düzmüşlər.

Toplantıda məktəbin tarix müəllimi Mətanət Məmmədova, Tofiq Qaragözov, Qəbələ Təhsil Şöbəsinin metodkabinetinin müdiri Arifə Bayramova 20 Yanvar faciəsindən—qan yaddaşımızdan söhbət açmışlar. Şəhid Sahil Şirinovun qardaşı Zaman Şirinov çıxış edərək bütün şəhidlərin və qardaşının xatirəsinin uca tutulduğu üçün kollektivə öz təşəkkürünü bildirmişdir. Şagirdlər 20 Yanvara həsr edillmiş şeirlər söyləmiş, ədəbi-bədii kompozisiya nümayiş etdirmişlər. Sonda şəhidlərə həsr edilmiş guşəyə gül dəstələri qoyulmuşdur. Şəhid anası Şəhla Şirinova ehsan süfrəsi açmışdır. Toplantı iştirakçıları mənfur ermənilərə və havadarlarına öz nifrətlərini bildirmişlər. Tədbirdə xatirə şəkilləri çəkilmişdir.

**✍ Emin BARATOĞLU,**
**«Qəbələ»nin ştatdankənar müxbiri,**
**AYB-nin və AJB-nin üzvü.**